# Dərdimizə işıq tutan şair



**İmam Cəmilli,**
şair-publisist

***Rəfail Tağızadənin yaradıcılığı ilə çoxdan ta- nışam. Özünəməxsus yaradıcılıq yolu olan Rəfail Tağızadənin imzası ədəbi aləmdə şair kimi çoxdan təsdiq olunmuş və özünə yetərincə oxucu auditoriya- sı qazandırmışdı.***

Şair 2019-cu ildə işıq üzü görən sanballı kitabının adını "Su üzərində bahar" adlandırması başqaları kimi mənim də diqqətimi cəlb etdi. Novruzun ilki olan Su çərşənbəsi, baharın gəlişinin müjdəçisi hesab olunur. Xalq inancına söykənən müəllif kitabına "Su üzərində bahar" adını verməkdə inanır ki, kitabın içərisindəki şeirlər bahar nəfəsi, ba- har təravəti, bahar gözəlliyi kimi oxucuları özünə cəlb edəcəkdir.

Müəllif yanılmayıb. Kitabı oxuduqca, bir-bi- rindən cazibədar olan şeirlər oxucu diqqətini cəlb edir.

Kitabın ilk səhifəsində şairin "Darıxıram" adlı bir şeiri var.

**Könlümə toran düşüb, İçim dolu sualdı.**
**Baxdım sınıq güzgüyə, Allah, bu hal nə haldı?**

Mənim diqqətimi çəkən "Baxdım sınıq güz- güyə" misrası oldu. İçi sualla dolu olan şair sınıq güzgüdə əksini görərkən "Allah, bu hal nə haldı?" deyə heyrətini gizlədə bilmir.

İkinci bənddə şair oxucuya bir balaca ip ucu verir.

**Üzümdəki sevinci,**
**Gözümün yaşı yuyur. Sıraya dərd düzülsə, Öndə ayrılıq durur.**

Həssas oxucu sınıq güzgüdə əksini görən şairin heyrətinin səbəbinin ayrılıq olduğunu bilir. Şair üçün dərdlər sıraya düzülsə öndə ayrılıq durar, deməsi ilə ayrılığın sitəmindən şikayətlənir.

Biz bu yazıda şairin ayrılıqdan çəkdiyi ağrı- acıya güzgü tutmağa çalışacağıq.

Bir çox soydaşları kimi Rəfail Tağızadə də qaçqın taleyi yaşayıb. Həmin keşməkeşli həyatı gözü ilə görüb yaşayan şairin yaradıcılığında qaçqın hə- yatı, doğma od-ocaq həsrəti qırmızı xətt kimi keçir. Öndə duran ayrılıq dərdi şairin bütün misralarında ürək ağrısı ilə özünü göstərir.

Şair qismətinə taleyin acısı yazılmış qaçqın uşaqlarının həyat tərzinin ağırlığını "Qaçqın uşağı" şeirində məharətlə ümumiləşdirərək oxucuya aşa- ğıdakı kimi təqdim edir.

**Küçəsi – səhranın çıxış xətti,**
**məhləsi – yardım məntəqəsinin yanı, evi sonuncu çadır.**

**Yatağı çadırın küncü –**
**Qaçqın uşağı.**

Şeir 25 il bundan əvvəl yazılıb. Yolların kəna- rında qaçqın çadırlarını kim görməmişdi? Şeirdəki acınacaqlı təsvir hamıya tanışdır.

Günahsız insanların acı taleyi şairi için-için ovxarlayır.

**Yaş kağızı möhürlərlə dolu,**
**Adı BMT-nin, Qırmızı Xaçın siyahısında, yardımla böyüyən,**
**şəkli**
**əcnəbi nümayəndəliklərin məzlumlar albomunda – Qaçqın uşağı.**

**Nə qədər real və təsirli mənzərədir. Şairin hər misrası oxucunun göz yaşına səbəb olur.**

**Millətini didərgin, məktəbi çadırdan, təqdimatı**
**adından, soy adından qabaq –**
**Qaçqın uşağı.**

Şairin bu bəndi günahsız uşaqlara qaçqın həyatı yaşadanlara güllə əvəzidir. Bir romanlıq ha- disəni özündə ehtiva edən "Qaçqın uşağı" şeiri iste- dadlı şair qələminin poetik mənzərəsidir.

**Şeiri kövrəlmədən oxumaq mümkün deyil.**

**"Güllə səsi" şeirində şair müharibədə günah- sız körpələrin öldürülməsini insanlığın ağlasığmaz vəhşiliyi kimi təqdim edir.**

**Bir körpə anasın axtarır hələ,**
**Açılan güllənin alovlarında.**

Təzada bax! Güllənin alovunda körpə anasını axtarır. Sözün bitdiyi son an. Şərhə ehtiyac olmayan qandondurucu vəhşilik.

Güllələr körpənin son oyuncağı, güllələr körpənin son dayanacağı.




İçərisi partlayıcı maddədən ibarət olan alda- dıcı uşaq oyuncaqları ilə uşaqların öldürülməsi ba- ğışlanmaz cinayət olduğu şair diqqətindən yayınmır. Həmin oyuncaqlar, həmin güllələr körpələrin son oyuncağı olmaqla bərabər, ömrünün son dayana- cağıdır.

Bu cür hadisənin Xocalıda, Kərkükdə, Mosul- da, Hələbdə, Kabildə, Varşavada, Osvensimdə, Bağdadda, Dəməşqdə və s. şəhərlərdə törədilməsini şair oxucu diqqətinə çəkməklə bərabər, törədilmiş vəhşilikləri bir daha xatırladır. Məqsəd isə təmiz bildiyimiz səmadan körpələr evlərinə, xəstəxanalara yağan mərmilərin qarşısını almaq üçün insanlığı etiraz səsini ucalmağa təşviq edir, şair.

Kitabda vətənpərvərlik şeirləri ilə yanaşı, mə- həbbət mövzusunda olan şeirlər də yer almışdı.

Kitabı oxuyub başa çıxanda görürsən ki, şai- rin istər vətən mövzusunda olsun, istərsə də məhəb- bət mövzusunda özünəməxsus yaradıcılıq yo- lu, üslubu var. Qələmə aldığı mövzuya fərqli bucaq baxımından yanaşan şair, heç kimə yox, ancaq özünə bənzəyir. Bu da onu tam fərqli bir qələm sahibi kimi təsdiq edir.

Müasir oxucunu cəlb etmək çətindir. Gündə sosial şəbəkədə müxtəlif məzmunlu, xüsusən məz- munsuz, ideyasız şeirə qulaq asan "oxucu"nun diq- qətini çəkmək üçün məzmunlu, yeni məna çalarlı sözlərdən istifadə etmək lazımdır.

Kitabdakı məhəbbət məzmunlu şeirlərdən nü- munələr çəkməklə fikrimizi təsdiq edə bilərik.

"Sevgi nəğməsi" şeirində üç obraz var. Aşiq, məşuq və külək. Külək qızın əlindən çətiri qaçırtmağı ilə aşiqin içini çözərək oxucuya təqdim edir. Yaranmış şəraitdən istifadə edən aşiq qıza olan sevgisini belə izhar edir.

Daha bu əllərim çətirdi sənə,
O mil-mil barmağım pərdələnibdi. Mənim baxışlarım şimşəkdən iti, Bulud pərən-pərən səpələnibdir.



Aşiq şimşəkdən iti olan baxışları ilə qara buludları pərənpərən edibdi ki, küləyin acığına çətirə ehtiyac olmasın.

Hətta aşiq küləyi boz qayalara çırparaq bir rəqib kimi məhv edibdi. Getdikcə coşan aşiq məhəbbət alovunda alışmağa başlayır və məşuqədən onu söndürməsini tələb edir.

Məşuqə "alovlanan" aşiqi söndürür. Necə?

Onda axırıncı bəndə fikir verək:

Çırpdım külləkləri boz qayalara, Söndür, söndür məni, alışacağam. Mənim coşan sinəm yelkən kimidir, Dəniz dodağından yapışacağam.

Aşiqin coşan yelkən sinəsi məşuqənin dəniz dodağında lövbər salır. Aşiqin arzusu da bu deyildimi? Sözlərə yeni don geyindirən şair iki sevəni ağlagəlməz bir üsulla qovuşdurur. Müasir oxucu bu şeiri necə sevməsin? Yeni söz, yeni məzmun, yeni ideyadan ilmə-ilmə hörülmüş rəngbərəng xalıya bənzəyir bu şeir.

Kitabda "Sev məni" adlı maraqlı bir şeir istər- istəməz oxucu diqqətini çəkəndir. Ona görə maraqlı şeir deyirəm ki, həmin hissləri gənclikdə hamı ya- şayıb.

Şeirin yazılma tarixinə baxıram, 1982-ci il. Doğum tarixi ilə hesablayanda şeiri şair 24 yaşında yazıbdır. Gəncliyin qaynar, unudulmaz çağında.

Oxucu şeiri oxuyanda misraların arxasından istər-istəməz şairin silueti görünür. Nə deyir şair?

**Gördüyün kimi sev məni, necə varamsa,**
**bax, eləcə sev. Sev indi,**
**sən bir qəlbi sevindir. Məndən Məcnun olmaz,**
**Nə səbrim, nə dözümüm var. neçə yüz il yaşamağa.**
**Məcnun dəvəsi vardı,**
**dəvəsi qədər də dözümü vardı. Olduğum kimi sev məni, təsəvvürsüz, dəvəsiz, filansız.**

"Göründüyün kimi yox, olduğun kimi görün" fikrinin bədii təsdiqidir şeir. Yalandan, riyadan uzaq saf məhəbbət istəyir şair. Şeirdəki təmizlik arzu- istəyi ilə müasirlik arasındakı ziddiyyət və uçurumu həssas oxucu görməyə bilməz. Şeirin 43 il bundan öncə yazılmasına baxmayaraq bu gün də öz ak- tuallığını qoruyub saxlayır. Nə qədər cəmiyyətdə əxlaqi kriteriyalar bugünkü kimi davam edəcəksə, "Sev məni" şeiri oxucuların sevimli əsəri olaraq qala- caqdır. Çünki şeirdə təmiz, ənliksiz, kirşansız sev- gidən söhbət gedir.

"Səni sevdim", "Azıram gecəmin boşluğunda", "Gecəmizə ay doğar", "Belə sevməmişdim" və s. şeirlər bu qəbildəndir.

Kitabda iki poema verilmişdir. Onlardan biri "Adam Mitskeviçin xatirəsinə on nəğmə" adlanır. Görəsən şairi Adam Mitskeviçin xatirəsinə poema həsr etməsinin səbəbi nədir? Səbəb – hər iki şairi dərd birləşdirir. 1798-ci ildə doğulan Adam Mitske- viç ömrü boyu vətənini yadelli işğalçılardan azad olunması üçün mübarizə aparıb. İnqilabçı-şair azad- lıq ideyalarına görə doğma vətənindən didərgin salınıb. Fransada, Rusiyada yaşamalı olub. Peterburqda sürgündə olarkən Mirzə Cəfər Topçubaşovla tanış olur. Topçubaşov Adamın bir neçə şeirini fars dilinə tərcümə edir.

Adam Mitskeviç məşhur "Pan Tadeuşin" poe- ma-epopeyasını 1831-ci ildə çap etdirib. Poemanın baş qəhrəmanı Pan Tadeuşinin – protipi Pan Kosyuş- kodur.

Polyak xalqının azadlıq aşiqi olan inqilabçı- şair Adam Mitskeviç 26 noyabr 1855-ci ildə İstanbulda vəfat edib.

Bir ömrü vətəninin azadlığı üçün sərf edən şairə vətənində məzar yeri də qismət olmur. Adam Mitskeviçin bu dərdidir Rəfail Tağızadəni riqqətə gətirib poemanı yazdıran.

**Bir dərd var ürəyimdə.**

Mitskeviçin misraları kimi, ağı – deyən şair içini göynədən dərdini belə izhar edir.

**Mənim doğulduğum yerlər, düşmən əsarətində,**
**yağı caynağındadı.**

**Vətən həsrəti mənim**
**gözlərimin qarasında, ağındadır.**

**(ardı gələn sayımızda)**